Musiqi bayramı

# Dünya mədəniyyətinin qovuşduğu bənzərsiz məkan

**Musiqi festivalları xalqların mədəniyyətlərini bir-birinə yaxınlaşdırmağa xidmət edir. "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının keçirilməsində də məqsəd elə budur. Bu festival ilk dəfə 1989-cu ildə xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar keçirilib.**

İlk festivalda yerli ifaçılarla bərabər Qırğızıstan, Qazaxıstan, Başqırdıstan, Litva və Belarus SSR-dən olan musiqi qrupları da bacarıqlarını nümayiş etdiriblər. Həmin festivalda 100-ə yaxın nümayəndə iştirak edib. Konsertlər Cıdır düzü meydançasında quraşdırılmış 7 məkanda keçirilib. Festival 12-15 yaşlarında "Qarabağ şikəstəsi" mahnısını ifa edən gənc xanəndələrin ifası ilə açılıb. Qarabağ atlarının yarışının keçirilməsi də iştirakçıların böyük marağına səbəb olub.

Növbəti ildən - 1990-cı ildən "Xarıbülbül" festivalı əhəmiyyətinə, mahiyyətinə görə beynəlxalq status alıb. Buna görə də ikinci festivalda keçmiş ittifaq respublikaları ilə yanaşı, Yaponiya, ABŞ, Türkiyə, Almaniya, İsrail, Hollandiya, İtaliya, İspaniya, Avstriya, Əfqanıstan kimi ölkələrdən nümayəndələr də iştirak ediblər. Üçüncü festival 1991-ci ildə əvvəlkindən daha möhtəşəm şəkildə keçirilib. Bu tədbirə 25 ölkədən təxminən 300 nəfər qatılıb. 1990-1991-ci illərdə festivalın final konsertləri Bakıdakı Respublika Sarayında (indiki Heydər Əliyev Sarayı) təşkil olunub. Dördüncü festival 1992-ci il mayın 15-də başlamalı, o vaxtadək keçirilən tədbirlərin ən möhtəşəmi olmalı imiş. Dünyanın 30-dan çox ölkəsindən 500 nəfərin iştirakı nəzərdə tutulmuşdu. Lakin həmin il mayın 8-də Şuşa şəhəri Ermənistan hərbi birləşmələri tərəfindən işğal edildiyinə görə "Xarıbülbül" Musiqi Festivalının Şuşada keçirilməsi mümkün olmamışdı.

Qarabağ münaqişəsi başlayandan sonra isə Xarıbülbül Azərbaycan xalqının mübarizə rəmzinə çevrilib. Hər birimizin qəlbində xüsusi yer tutan, qədim mədəniyyət beşiyi olan Şuşa 28 ildən çox davam etmiş işğal dövründə mənfur düşmənin törətdiyi dağıntılara baxmayaraq, özünün bənzərsiz aurasını, milli ruhunu qoruyub saxlaya bilmişdi. 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsində Şuşa erməni işğalından azad olunmuşdu. Azərbaycanın qazandığı şanlı qələbədən sonra Şuşamızın yeni növrağı - qonaqlı-qaralı, çal-çağırlı günləri başlamışdı. Həyat əvvəlki axarına qayıtmışdı.

Mayın 11-də Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şuşanın Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Festival bir sıra ölkələrdən musiqi kollektivlərini Cıdır düzünə toplayaraq beynəlxalq statusunu bir daha təsdiqlədi. Bu festival ölkəmizi beynəlxalq aləmə təqdim etməklə yanaşı, dünya mədəniyyətini Şuşada qovuşdurdu.

Möhtəşəm mədəniyyət hadisəsinə çevrilən VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında Azərbaycan ilə yanaşı, Birləşmiş Ərəb Əmirlikləri, İndoneziya, İran, Qazaxıstan, Qətər, Qvineya, Mərakeş, Özbəkistan və



Türkiyə təmsil olunurdu. Türkiyənin dünyaşöhrətli "Anadolu Atəşi" ansamblının bənzərsiz çıxışı iştirakçılar tərəfindən böyük hərarətlə qarşılandı. Festivaldan sonra iştirakçıların Şuşa haqqında, tədbir haqqında dediyi sözlər hər birimizdə qürur hissləri doğurdu. İştirakçılar tədbirin Şuşada keçirilməsini yüksək qiymətləndirdilər, mədəniyyətlərin bir-birinə yaxınlaşmasında "Xarıbülbül" musiqi festivalının əhəmiyyətini xüsusi vurğuladılar.

Festivalda, əsasən, müxtəlif ölkələrdən gəlmiş incəsənət ustalarının iştirakı ilə yaddaqalan və müxtəlif parlaq anlar yaşandı. Festival təkcə təqdim olunan kompozisiyaların çeşidli və geniş proqramı ilə seçilmir, həm də çox mühüm beynəlxalq əhəmiyyətə malik olmağı ilə diqqətləri özünə cəlb edir. Ürəkləri fəth edir, qəlbləri sevindirir. Başqa festivallar kimi "Xarıbülbül" də mədəniyyətlərarası dialoqu və humanizm, sülh, yaradıcılıq, multikulturalizm və tolerantlıq ideyalarının təbliğini təşviq edir. Ən önəmlisi isə musiqi, mədəniyyət dünyanın ayrı-ayrı guşələrində yaşayan xalqları bir araya gətirir. Böyük inamla deyə bilərik ki, "Xarıbülbül" festivalı artıq müxtəlif xalqların böyük bir musiqi bayramına çevrilib. Bayrama çevrilən bu festival mədəniyyətimizin və ümumbəşəri dəyərlərimizin salnaməsinə böyük hərflərlə həkk olunub.

Belə festivallar bir daha sübut edir ki, musiqi sərhəd tanımır. Xalqların şanlı tarixini və mübarizə yolunu, arzu və düşüncələrini tərənnüm edən müxtəlif musiqi nömrələri, muğam və el havaları milliyyətindən, dinindən, dilindən asılı olmayaraq, hamının qəlbini cuşa gətirir, könülləri xoş edir. Musiqi müxtəlif xalqlar arasında mehribanlıq yaradır, dünyanı sülhə, əmin-amanlığa səsləyir. Festivalda səslənən dünya xalqlarının musiqi nümunələri əmin-amanlıqla bərabər, gözəlliyi, məhəbbəti də tərənnüm edir. Dünyanın bir çox ölkələrindən çoxsaylı musiqiçilərin iştirak etdiyi bu dostluq və musiqi bayramı mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması işinə böyük töhfələr verir. Festivalın davam etdiyi günlərdə müxtəlif ölkələri təmsil edən musiqiçilərlə sıx ünsiyyət və əməkdaşlıq qurulur, mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi üçün əlverişli şərait yaranır.

"Xarıbülbül" festivalı, sözün əsl mənasında, milli birlik, qürur, zəfər, ləyaqət bayramına, Böyük qayıdışın qətiyyətli təntənəsinə çevrilib. Şuşada keçirilən mühüm tədbirlər dünya ictimaiyyəti tərəfindən də böyük maraqla izlənilir və yüksək qiymətləndirilir. Ölkəmizdə təşkil olunan bu festival bir daha sübut edir ki, Azərbaycan xalqı sülhsevər, qonaqpərvər, dostluq, barış içində yaşamaq istəyən, müharibədən, qan tökməkdən uzaq olan mehriban bir xalqdır.

"Xarıbülbül" festivalının səsi-sorağı dünyanın hər yerinə yayıldı. Əminliklə demək olar ki, növbəti illərdə keçiriləcək festivallarda daha çox ölkələrin nümayəndələri iştirak edəcəklər. İllər ötüb arxada qaldıqca mədəniyyətimiz, musiqimiz dünyanın hər yerinə yayılacaq. Bununla da ölkəmiz dünya mədəniyyətini qovuşduran, doğmalaşdıran bir diyara çevriləcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 14 may, № 99.- S.11.